

# ART IN EMBASSIES EXHIBITION

## UNITED STATES EMBASSY BAKU

Dan Namingha

**Morning Showers #1**, undated
Acrylic on canvas, 40 x 40 in.
Courtesy of the artist, and Niman Fine Art, Santa Fe, New Mexico

Dən Naminqa

**“Sübh leysanı nömrə 1”**, tarixi göstərilməmişdir
Kətan üzərində akril boya ilə çəkilmiş rəsm, 101.6 x 101.6 sm
Müəllifin və Nyu-Meksiko ştatının Santa Fe şəhərindəki “Niman” Təsviri İncəsənət mərkəzinin icazəsi ilə

# ART IN EMBASSIES EXHIBITION

# UNITED STATES EMBASSY BAKU

# Art in Embassies

Established in 1963, the U.S. Department of State's office of Art in Embassies (AIE) plays a vital role in our nation's public diplomacy through a culturally expansive mission, creating temporary and permanent exhibitions, artist programming, and publications. The Museum of Modern Art first envisioned this global visual arts program a decade earlier. In the early 1960s, President John F. Kennedy formalized it, naming the program's first director. Now with over 200 venues, AIE curates temporary and permanent exhibitions for the representational spaces of all U.S. chanceries, consulates, and embassy residences worldwide, selecting and commissioning contemporary art from the U.S. and the host countries. These exhibitions provide international audiences with a sense of the quality, scope, and diversity of both countries' art and culture, establishing AIE's presence in more countries than any other U.S. foundation or arts organization.

# Səfirliklərdə incəsənət

1963-cü ildə yaradılmış ABŞ Dövlət Departamentinin "Səfirliklərdə İncəsənət" proqramı mədəniyyət sahəsində böyük missiya daşıyır və müvəqqəti və daimi sərgilərin təşkili, rəssamlarla bağlı müxtəlif proqramların və nəşrlərin həyata keçirilməsi vasitəsilə dövlətimizin xalq diplomatiyasında mühüm rol oynayır. Bu qlobal təsviri incəsənət proqramının həyata keçirilməsini ilk dəfə Müasir İncəsənət Muzeyi on il bundan əvvəl nəzərdə tutmuşdur. 1960-cı illərin əvvəllərində Prezident Con Kennedi bu proqramı rəsmi qaydada təsdiq etmiş və proqramın ilk direktorunu təyin etmişdir. Hazırda "Səfirliklərdə İncəsənət" layihəsi dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən səfirlik, konsulluq və səfirlik iqamətgahlarında ABŞ və ev sahibi olan ölkələrin müasir incəsənət nümunələrini seçərək 200 məkanda təşkil olunan müvəqqəti və daimi sərgilərə kuratorluq edir. Bu sərgilər beynəlxalq izləyicilərə hər iki ölkənin incəsənəti və mədəniyyətinə xas olan keyfiyyət, miqyas və müxtəliflik barədə məlumat ötürür, eləcə də bu proqram çərçivəsində hər hansı bir ABŞ fondu və yaxud incəsənət təşkilatına məxsus olandan daha çox ölkədə "Səfirliklərdə İncəsənət" məkanlarının formalaşmasına kömək edir.

# Introduction

I am pleased to welcome you to the U.S. Embassy, and invite all of you to see this exhibition of works by American artists showing some of the many different ways Americans see their country.

It would not have been possible to bring these paintings to Baku without the generosity of the artists and the Department of State's Art in Embassies program, an initiative going back five decades designed to foster cross-cultural awareness, dialogue, and understanding. Cultural exchange compels us to look at our world in different ways and to consider the valid perspectives of others. Artistic expression is a powerful tool for helping us confront and overcome discord as well as for helping us to notice and to appreciate the many different facets of the world around us.

With this in mind I hope you will enjoy these artworks brought to Baku, whether abstract or realistic, or whether depicting features of the northeastern or southwestern United States. I hope as well that you also see something that reminds you of the varied nature of Azerbaijan and of your own country's different artistic traditions.

Ambassador Robert F. Cekuta

*Baku*
*September 2016*

# Introduction

Sizi ABŞ Səfirliyində salamlamaqdan şadam və hər birinizi amerikalıların öz ölkələrini müxtəlif cür təsəvvür etdiklərini göstərən amerikalı rəssamların əsərlərindən ibarət olan bu kolleksiyaya baxmağa dəvət edirəm.

Bu rəssamların və Dövlət Departamentinin Səfirliklərdə İncəsənət adlı proqramının fədakarlığı olmasaydı bu rəsmləri Bakıya gətirmək mümkün olmazdı. Mədəniyyətlər arasında informasiya mübadiləsini, dialoqu və anlaşmanı təşviq etmək məqsədilə yaradılmış Səfirliklərdə İncəsənət təşəbbüsü artıq əlli ildir ki, həyata keçirilir. Mədəniyyət mübadiləsi bizi öz dünyamıza fərqli şəkildə nəzər salmağa və digər mədəniyyətlərin əlamətdar cəhətlərini diqqətə almağa vadar edir. Bədii ifadə bizə ziddiyyətlərə qarşı müqavimət göstərməyə və onların öhdəsindən gəlməyə, eləcə də ətrafımızdakı aləmin bir çox fərqli tərəflərini görməyə və onları qiymətləndirməyə kömək edən güclü vasitədir.

Bütün bunları nəzərə alaraq mən ümid edirəm ki, siz Bakı şəhərinə gətirilmiş istər mücərrəd və istər realist üslubda olan, və yaxud Birləşmiş Ştatların şimal-şərq və ya cənub-qərb bölgələrinin xüsusiyyətlərini canlandıran bu incəsənət nümunələrini seyr etməkdən zövq alacaqsınız. Mən eyni zamanda ümid edirəm ki, bu rəsmlər sizə Azərbaycanın rəngarəng təbiətini və ölkənizin müxtəlif rəssamlıq ənənələrini də xatırladacaqdır.

Ambassador Robert F. Cekuta

*Baku*
*September 2016*





# Rush Brown

*1948*
*Pittsburg, Pennsylvania*

“While my Artistic concerns are diverse and lead me in many directions, much of my painting centers on observations of my immediate environment. The two paintings, *Called Away* and *The Knutsen* were painted while living in full view of the Portland waterfront, from 2001 to 2013. Alas, due to neighborhood development, the views are gone and I have moved. However I continue to paint the harbor at water level, where I spend hours enjoying the diverse and lively activity of boats in their varying pursuits and proportions. In any case, my efforts concentrate on the attempt to balance or even transcend literal representation and capture that glorious ambience which fills my heart and drives my life’s pursuits.”

Rush Brown received his Bachelor of Fine Arts degree from the Philadelphia College of Art (Pennsylvania) in 1971. He studied at the California College of Arts and Crafts in Oakland, from 1973 to1974. He received his Master of Arts degree in painting from New York University in 1980.

**The Knutsen, also entitled Class Struggle**, undated
Oil on canvas, 20 x 48 in.
Courtesy of the artist, Portland, Maine

**Called Away**, undated
Oil on canvas, 14 x 18 in.
Müəllifin icazəsi ilə: Portland, Maine

# Raş Braun

*1948-ci il*
*Pitsburq, Pensilvaniya*

“Rəssamlıq maraqlarımın müxtəlif olmasına və onların məni bir çox istiqamətlərə yönəltməsinə baxmayaraq, çəkdiyim rəsmlərin əksəriyyəti birbaşa əhatəsində olduğum mühitdəki müşahidələrimə əsaslanır. *“Uzaqlaşmağa çağırış”* və *“Knutsen”* adlı iki rəsmi 2001-ci ildən 2013-cü ilədək Portlandın şəhərkənarı sahilində yaşayarkən çəkmişəm. Təəssüf ki, məhəllənin inkişafı ilə əlaqədar həmin mənzərə indi artıq yoxdur və mən də oradan köçmüşəm. Buna baxmayaraq, fərqli istiqamətlərə üzən, müxtəlif ölçülü qayıqların rəngarəng və canlı hərəkətlərindən saatlarla həzz alaraq limanın su səviyyəsində olan təsvirini çəkməyi davam etdirirəm. İstənilən halda, mənim səylərimin əsas məqsədi ruhumu oxşayan və həyat axtarışlarımı əks etdirən bu möhtəşəm mühitin obrazını tarazlamaq və ya hətta onun hüdudlarını aşmaqdır.”

Raş Braun təsviri incəsənət üzrə bakalavr təhsilini 1971-ci ildə Filadelfiya İncəsənət Kollecində (Pensilvaniya) almışdır. O, 1973-1974-cü ildə Oklend şəhərindəki Kaliforniya İncəsənət və Sənətkarlıq Kollecində təhsil almışdır. Raş Braun 1980-ci ildə Nyu-York Universitetini bitirərək incəsənət üzrə magistr dərəcəsini almışdır.

**“Knutsen”, həmçinin “Sinfi mübarizə” adı ilə də tanınır**, tarixi göstərilməmişdir
Kətan üzərində yağlı boya ilə çəkilmiş rəsm, 50.8 x 121.9 sm
Müəllifin icazəsi ilə: Portland, Men

**“Uzaqlaşmağa çağırış”**, tarixi göstərilməmişdir
Kətan üzərində yağlı boya ilə çəkilmiş rəsm, 35.6 x 45.7 sm
Müəllifin icazəsi ilə: Portland, Men



## Steve Gibson

*1946*

"My work is an enigmatic association of stream of consciousness. I deconstruct and reconstruct visual relationships as I draw on historical and contemporary visual references. This multi-linear approach allows me the flexibility to reframe the visual references in an intuitive and personal manner. What develops is a contextual ambiguity that comes together in unexpected ways to shape the visual experience. This experience will hopefully queue the viewer to a chronicle that has yet to be interpreted."

Steve Gibson received his Bachelor of Arts degree from California State University, San Diego in 1971, and his Master of Arts degree from the same school two years later. He received his Master of Fine Arts degree from the School of The Art Institute of Chicago (Illinois) in 1976.

For the past forty years, Gibson has continued to exhibit and work as a studio artist in La Mesa, California. He has been included in over ninety juried, invitational, and one-person exhibitions worldwide. His work is in many prestigious public collections, including that of the San Diego Museum of Contemporary Art, California; William Patterson University, Wayne, New Jersey; California State University Northridge, San Diego, and Long Beach; Oxford Gallery, England; Jingdezhen Sanbao Ceramic Art Institute, China; Shenzhen Art Institute, China; The School of The Art Institute of Chicago, Illinois; and Musée des beaux-arts du Locle, Switzerland.

---

**Race**, 2012
Oil on linen, 24 x 18 in.
Courtesy of the artist, San Diego, California

**"Yarış"**, 2012-ci il
Kətan üzərində yağlı boya ilə çəkilmiş rəsm, 61 x 45.7 sm
Müəllifin icazəsi ilə: San-Diyeqo, Kaliforniya

## Stiv Qibson

*1946-cı il*

"Mənim işim dərrakə axınının sirli birləşməsidir. Mən, tarixi və müasir vizual istiqamətlərdən istifadə etməklə onların qarşılıqlı əlaqələrini aşkara çıxarır və yenidən qururam. Bu çoxxətli yanaşma mənə vizual istiqamətləri intuitiv və fərdi şəkildə fərqli formada ifadə etməyə imkan verir. Nəticədə vizual təcrübə ilə birlikdə məzmun qeyri-müəyyənliyi gözlənilməz yollarla formalaşır. Bu təcrübə çox güman ki, tamaşaçını şərh edilməsi tələb olunan silsilə təsvirlərin ardınca aparırı."

Stiv Qibson 1971-ci ildə San-Diyeqo şəhərindəki Kaliforniya ştatı Universitetində incəsənət üzrə bakalavr təhsili almış və iki il sonra isə eyni universitetin incəsənət üzrə magistr dərəcəsini bitirmişdir. O, təsviri incəsənət üzrə magistr dərəcəsini 1976-cı ildə Çikaqo İncəsənət İnstitutunda (İllinoys) başa vurmuşdur.

Qibson son qırx il ərzində Kaliforniya Ştatının La Mesa şəhərində studiya rəssamı kimi sərgilər təşkil etmiş və yaradıcılığını davam etdirmişdir. O, dünyanın müxtəlif ölkələrində keçirilən doxsandan çox münsifli, qapalı və fərdi sərgilərdə iştirak etmişdir. Onun əsərləri bir çox nüfuzlu ictimai kolleksiyalarda, o cümlədən Kaliforniya ştatındakı San-Diyeqo Müasir İncəsənət Muzeyində, Nyu-Cersi ştatının Ueyn şəhərindəki Uilyam Patterson Universitetində, Kaliforniya ştatı Universitetinin Nortric, San-Diyeqo və Lonq Biç şəhərlərindəki filiallarında, İngiltərənin Oksford Qalereyasında, Çinin Jingdezhen Sanbao Dulusçuluq Sənəti İnstitutunda, Çinin Şençjen İncəsənət İnstitutunda, İllinoys ştatının Çikaqo şəhərindəki İncəsənət İnstitutunda və İsveçrədəki "Musée des beaux-arts du Locle" Muzeyində nümayiş etdirilir.

**Seawall Waves**, 2015
Oil on panel, 15 x 18 in.
Courtesy of the artist,
Lubec, Maine

**"Dəniz bəndindəki dalğalar"**, 2015-ci il
Lövhə üzərində yağlı boya ilə çəkilmiş rəsm,
38.1 x 45.7 sm
Müəllifin icazəsi ilə:
Lyubek, Men





**Looking Down from Yaki Point**, 2013
Oil on panel, 15 x 18 in.
Courtesy of the artist,
Lubec, Maine

**"Yaki yüksəkliyindən aşağıya nəzər salarkən"**,
2013-cü il
Lövhə üzərində yağlı boya ilə çəkilmiş rəsm,
38.1 x 45.7 sm
Müəllifin icazəsi ilə:
Lyubek, Men

## Michael Chesley Johnson

A plein air painter, Michael Chesley Johnson chooses locations to paint primarily from the American Southwest, Downeast Maine, and the Canadian Maritimes regions. He has been invited to the Sedona Plein Air Festival, Grand Canyon National Park, and Zion National Park invitationals. In 2012, he was an invited artist in *PleinAir* Magazine's First Annual Plein Air Convention and Expo in Las Vegas, Nevada. Johnson was awarded Master Pastellist status by Pastel Artists Canada in 2008, and is a Signature Member of the American Impressionist Society, the Pastel Society of America, and the Pastel Society of New Mexico, as well as a juried member of Oil Painters of America. His paintings have appeared in *The Artist's Magazine, Pastel Journal, American Artist,* and *Fine Art Connoisseur*, as well as in corporate and private collections.

Johnson gives painting workshops across the U.S. and in Canada to all levels of students. He is a Contributing Editor for *The Artist's Magazine* and writes regularly for *Pastel Journal*. He is also the author of several books, including *Outdoor Study to Studio: Take Your Plein Air Paintings to the Next Level* and *Backpacker Painting: Outdoors with Oil & Pastel.* Johnson maintains summer studio galleries on Campobello Island, New Brunswick, and in Lubec, Maine, and a winter studio gallery near Sedona, Arizona.

## Maykl Çesli Conson

Planerist rəssam olan Maykl Çesli Conson öz rəsmlərini çəkmək üçün əsasən ABŞ-ın cənub-qərb, Men ştatı və Kanadanın dənizkənarı bölgələrindəki məkanları seçir. O, Sedona Planerist Festivalına, Böyük Kanyon Milli Parkına və Zion Milli Parkına dəvət almışdır. 2012-ci ildə, o, *"PleinAir"* Jurnalının ilk illik plener konfransına və Nevada Ştatının Las-Veqas şəhərindəki sərgiyə dəvət almışdır. Conson 2008-ci ildə Kanadanın Pastel Rəssamları İttifaqının "Ustad Pastelist" statusuna layiq görülmüşdür, Amerika İmpressionist Cəmiyyətinin, Amerika Pastel Cəmiyyətinin və Nyu-Meksiko ştatının Pastel Cəmiyyətinin imzalı üzvü, eləcə də Amerika Yağlı Boya Rəssamları İttifaqının münsiflər heyətinin üzvüdür. Onun rəsm əsərləri *"The Artist's Magazine", "Pastel Journal", "American Artist"* və *"Fine Art Connoisseur"* jurnallarında, eləcə də korporativ və fərdi kolleksiyalarda dərc edilmişdir.

Conson ABŞ-da və Kanadada bütün təhsil səviyyələrində oxuyan tələbələr üçün rəsm seminarları həyata keçirir. O, *"The Artist's Magazine"* jurnalının redaktorudur və *"Pastel Journal"* jurnalına müntəzəm olaraq məqalələr təqdim edir. O, həmçinin bir neçə kitabın, o cümlədən *"Açıq hava təhsilinin emalatxanaya ötürülməsi: Plener rəsmlərin təkmilləşdirilməsi"* və *"Səyyar rəsm: yağlı boya və pastel ilə açıq hava rəsmləri"* adlı kitabların müəllifidir. Conson, Nyu-Bransuik şəhərindəki Kampobello Adasında və Men Ştatındakı Lyubek şəhərindəki yay rəsm qalereyalarına və Arizona ştatının Sedona şəhəri yaxınlığındakı qış rəsm qalereyasına rəhbərlik edir.



**Morning Showers #1**, undated
Acrylic on canvas, 40 x 40 in.
Courtesy of the artist, and Niman Fine Art, Santa Fe, New Mexico

**“Sübh leysanı nömrə 1”**, tarixi göstərilməmişdir
Kətan üzərində akril boya ilə çəkilmiş rəsm, 101.6 x 101.6 sm
Müəllifin və Nyu-Meksiko ştatının Santa Fe şəhərindəki “Niman” Təsviri İncəsənət mərkəzinin icazəsi ilə

## Dan Namingha

*1950*
*Keams Canyon, Arizona*

Dan Namingha is from the Tewa-Hopi tribe. His artistic journey has led him to combine his personal ideas and memories with the symbolism of his Hopi-Tewa culture and to translate the powerful geography of the Southwest through formal concepts of modern art and composition. His work often draws on the sacred traditions of his culture, which are deeply embedded in ceremony: the kachinas representing the spirit messengers, ancestors, and cloud people; the dualities of light and dark, of positive and negative; the passages between the everyday world and the spirit realm. Namingha's work commands unwavering respect for the earth and spirit of his ancestry.

The artist works in a broad variety of media, including paintings, sculpture, and collage. Drawing and painting were a natural part of Namingha's Hopi childhood. Art was a family affair, dating back to Namingha's great-great-grandmother, the famous Hopi potter Nampeyo, and running through the generations to current kachina carvers and potters. His formal study took him to the University of Kansas (Lawrence), the American Academy of Art (Chicago, Illinois), and the Institute of American Indian Arts (Santa Fe, New Mexico), from which he received an Honorary Doctorate in 2009.

Namingha has exhibited in dozens of one-man shows and many more group exhibitions, and his work hangs in over thirty major institutions, including the Smithsonian Institution (Washington, D.C.), the Sundance Institute (Park City, Utah), the Heard Museum (Phoenix, Arizona), the British Royal Collection (London, England), and other museums worldwide. He has received awards from the Harvard Foundation and the Fogg Art Museum (Cambridge, Massachusetts), as well as the Visionary Award from the Institute of American Indian Arts Foundation.

## Dən Naminqa

*1950-ci il*
*Keams Kanyon, Arizona*

Dən Naminqa, Teva-Hopi qəbiləsindəndir. Rəssamlıq karyerası ona şəxsi ideyalarını və xatirələrini Hopi-Teva mədəniyyətinin simvolları ilə birləşdirməyə, eləcə də müasir incəsənət və yaradıcılıq kompozisiyalarının formal konsepsiyaları vasitəsilə cənub-qərb bölgəsinin möhtəşəm coğrafiyasını canlandırmağa imkan vermişdir. O, yaradıcılığında çox vaxt mənsub olduğu mədəniyyətin mərasimlərlə sıx bağlı olan müqəddəs ənənələrindən istifadə edir: müqəddəs ruhların müjdəçiləri, əcdadları və buludların üstündəki xalqı təmsil edən rəqqaslar, işıq və qaranlığın, müsbət və mənfinin qarşılıqlı əlaqəsi, gündəlik həyat və ruh dünyasına keçid. Naminqanın yaradıcılığında yer kürəsinə və onun əcdadlarının ruhuna olan sarsılmaz ehtiram üstünlük təşkil edir.

Rəssam rəsm əsərləri, heykəltəraşlıq və kollaj da daxil olmaqla, geniş spektrdə fəaliyyət göstərir. Təsvirlər və rəsmlər Naminqanın Hopi qəbiləsində keçirdiyi uşaqlıq illərini təbii formada ehtiva edir. İncəsənət onun ailəsində ənənə halını almışdır, belə ki, Naminqanın ulu nənəsi, Hopi qəbiləsinin məşhur dulusçusu Nampeyonun məharəti uzun illər ərzində nəsildən-nəslə ötürülmüş, bu bacarıq kaçina ruhunun oyma fiqurlarını hazırlayan müasir dövrün ustalarına və dulusçularına qədər gəlib çatmışdır. O, Kanzas Universitetində (Lorens), Amerika İncəsənət Akademiyasında (Çikaqo, İllinoys) və Amerika Hindu İncəsənəti İnstitutunda (Santa Fe, Nyu-Meksiko) təhsil almış, eyni zamanda 2009-cu ildə Amerika Hindu İncəsənəti İnstitutunun fəxri doktoru adına layiq görülmüşdür.

Naminqa onlarla fərdi və bir sıra qrup sərgilərində öz əsərlərini nümayiş etdirmişdir və onun əsərləri otuzdan çox tanınmış institutda, o cümlədən Smitson İnstitutunda (Vaşinqton, D.C.), "Sundance" İnstitutunda (Park Siti, Yuta), "Heard" Muzeyində (Feniks, Arizona), Britaniyanın "Royal Collection" muzeyində (London, İngiltərə) və dünyanın müxtəlif ölkələrindəki digər muzeylərdə yer almışdır. O, Harvard Fondunun və Foqq İncəsənət Muzeyinin (Kembric, Massaçusets) mükafatlarına, eləcə də Amerika Hindu İncəsənəti Fondunun bədii mükafatına layiq görülmüşdür.





# Suzan Sayer

**Untitled**, undated
Oil on canvas, 34 ¾ x 40 ½ in.
Courtesy of Art in Embassies, Washington, D.C.

**“Adsız”**, tarixi göstərilməmişdir
Kətan üzərində yağlı boya ilə çəkilmiş rəsm, 88.3 x 102.9 sm
Səfirliklərdə İncəsənət Proqramının icazəsi ilə: Vaşinqton D.C.

**Fresh Snow**, 2011
Watercolor and drybrush
on paper, 44 x 56 in.
Courtesy of the artist,
Oyster Bay, New York

**“İlk qar”**, 2011-ci il
Akvarel və quru fırça ilə kağız üzərində
çəkilmiş rəsm, 111.8 x 142.2 sm
Müəllifin icazəsi ilə:
Oyster Bey, Nyu-York





# Barbara Ernst Prey

*1957*

*New York*

Barbara Ernst Prey graduated from Williams College (Williamstown, Massachusetts) and earned a Master's degree from Harvard University (Cambridge, Massachusetts). She received a Fulbright Scholarship and a grant from the Henry Luce Foundation, enabling her to travel, study, work, and exhibit extensively in Europe and Asia. Prey has studios in New York, Massachusetts, and Maine. She is adjunct faculty at Williams College.

Prey was appointed by the President of the United States to serve on the National Council on the Arts, the advisory board of the National Endowment for the Arts (2008-2014). Her work has attracted the attention of major museums, including the Brooklyn Museum (New York) and the Smithsonian American Art Museum (Washington, D.C.). She was recently honored with a retrospective exhibition in Paris, curated by Sarah Cash of the Corcoran Gallery of Art. Her painting *Line Leader* is on exhibit in the office of the Chairman of the National Endowment for the Arts. Prey's paintings are included in prominent private, corporate, and museum collections worldwide.

# Barbara Örnst Prey

*1957-ci il*

*Nyu-York*

Barbara Örnst Prey, Uilyams Kollecini (Uilyamstaun, Massaçusets) bitirmiş və Harvard Universitetində (Kembric, Massaçusets) magistr dərəcəsi üzrə təhsil almışdır. O, Fulbright təhsil proqramının təqaüdünə layiq görülmüş və Henri Lyus Fondu tərəfindən verilmiş qrant mükafatı sayəsində Avropa və Asiyanın müxtəlif ölkələrinə səyahət etmək, təhsil almaq, işləmək və sərgilərini nümayiş etdirmək imkanı qazanmışdır. Preyin Nyu-York, Massaçusets və Men ştatlarında rəssamlıq emalatxanaları fəaliyyət göstərir. O, Uilyams Kollecində müqavilə əsasında müəllim kimi də çalışır.

Prey, Amerika Birləşmiş Ştatlarının Prezidenti tərəfindən Milli İncəsənət Şurasının üzvü və İncəsənətə Dəstək Milli Fondunun məsləhətçi şurasının üzvü təyin edilmişdir (2008-2014). Onun rəssamlıq fəaliyyəti aparıcı muzeylərin, o cümlədən Bruklin Muzeyinin (Nyu-York) və Smitson Amerika İncəsənət Muzeyinin (Vaşinqton, D.C.) diqqətini cəlb etmişdir. Korkoran Rəssamlıq Qalereyasının rəhbəri Sara Keş tərəfindən bu yaxınlarda rəssamın Parisdə retrospektiv sərgisi təşkil olunmuşdur. Preyin bədii yaradıcılıq əsəri olan "Milad açıqcası" (Prezident tərəfindən sifariş verilib) Ağ Evin daimi rəsm kolleksiyasına daxil edilmişdir. Onun "Bələdçi" adlı rəsm əsəri İncəsənətə Dəstək Milli Fondunun Sədrinin ofisindəki eksponatlardan biridir. Preyin rəsmləri dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən tanınmış fərdi, korporativ və muzey kolleksiyalarına daxil edilmişdir.





**Passage**, undated
Oil on board, 48 x 72 in.
Courtesy of the artist, Camden, Maine

**"Keçid"**, tarixi göstərilməmişdir
Lövhə üzərində yağlı boya ilə çəkilmiş rəsm,
121.9 x 182.9 sm
Müəllifin icazəsi ilə: Kamden, Men

**Silence**, undated
Oil on board, 64 x 48 in.
Courtesy of the artist, Camden, Maine

**"Sükut"**, tarixi göstərilməmişdir
Lövhə üzərində yağlı boya ilə çəkilmiş rəsm,
162.6 x 121.9 sm
Müəllifin icazəsi ilə: Kamden, Men

# Donald Vincent Rainville

*1960*
*Salem, Massachusetts*

Don Rainville is known for his use of action painting techniques. Rainville takes his inspiration from infinite forms of wild landscapes to create dynamic and expressive depictions of nature. After studying forestry at the Essex Technical Institute of Agriculture in Hawthorne, Massachusetts, Rainville worked in antique and art restoration, honing colorist skills and the ability to experiment with diverse materials. The consistent nature of such refined work is in direct contrast to Rainville's approach to his paintings. Using house oil paints allows less interruption in the application of paint, providing more direct access to the fluidity of the medium to achieve random and spontaneous effects. Rainville uses no brushes in his work, preferring to more directly manipulate paint; he works with torn shapes of lightweight cardboard, and at times, actual plant material to apply paint.

Tree epigenetics (or the adaptive capacity of trees to environmental changes) influences Rainville's more abstract works, as does jazz. "I liken my paintings to abstract orchestrations of visual music, much like jazz is unlike formalized concepts of music. My paintings are invented as they proceed, and as each portion of the composition comes forward on a moment by moment basis, the components are random and abstract, yet pre consciously orchestrated – the growth of a living forest works in much the same way."

Rainville exhibits his work throughout the New England region, and has shown at the Cahoon Museum on Cape Cod (Massachusetts) and the Currier Museum of Art in Manchester, New Hampshire, and his work is in numerous collections across the United States. Rainville presently maintains his studio in Camden, Maine.

# Donald Vinsent Reynvil

*1960-cı il*
*Salem, Massaçusets*

Donald Reynvil daha çox tematik rəsm əsərlərinin müəllifi kimi tanınır. Reynvil təbiətin canlı və ifadəli təsvirlərini yaratmaq üçün təbiət mənzərələrinin sonsuz formalarından ilham alır. Esseks Kənd Təsərrüfatı İnstitutunda meşə təsərrüfatı üzrə təhsil aldıqdan sonra, Reynvil antik və incəsənət əsərlərinin bərpası sahəsində çalışmış, cilalayıcı kolorist-rəssam bacarıqlarına və müxtəlif materiallar üzərində eksperimentlər həyata keçirmək təcrübəsinə yiyələnmişdir. Bir-biri ilə uyğunluq təşkil edən bu zərif iş fəaliyyətlərinin xarakteri Reynvilin öz rəsm əsərlərində göstərdiyi yanaşma ilə birbaşa ziddiyyət təşkil edir. Yağlı inşaat boyalarından istifadə etmək boyanın vurulmasında daha az qırılmalara səbəb olur və istifadə olunan mayenin rəng axıcılığı təsadüfi və qeyri-ixtiyari effektlərə nail olmağa imkan yaradır. Reynvil rəsmlərində fırçadan istifadə etmir və daha çox boyanı birbaşa idarə etməyə üstünlük verir, belə ki, o, müəyyən formaya salınmış yüngül karton parçalarından və bəzən isə boyanı vurmaq üçün bitki mənşəli materialdan istifadə edir.

Ağac epigenetikası (və ya ağacların ətraf mühitdəki dəyişikliklərə uyğunlaşma qabiliyyəti) Reynvilin mücərrəd rəsmlərinə caz musiqisi kimi təsir göstərir. "Mən öz rəsmlərimin sanki vizual musiqinin orkestrə uyğunlaşması kimi fərqlənməsini xoşlayıram, necə ki, caz formal musiqi konsepsiyasından fərqlənir. Mənim rəsmlərim işin axarına uyğun formalaşır, hər bir kompozisiyanın komponenti anbaan inkişaf edir, komponentlər təsadüfi və mücərrəd olsa da, əvvəlcədən düşünülmüş şəkildə bir-birinə uyğunlaşır – meşədəki canlı ağacların böyüməsi də eyni şəkildə baş verir".

Reynvil öz rəsmlərini ABŞ-ın şimal-şərq bölgəsində (Yeni İngiltərə), Keyp-Kod yarımadasındakı "Cahoon" Muzeyində (Massaçusets) və Mançesterdəki "Currier" adına İncəsənət Muzeyində (Nyu-Hempşir) nümayiş etdirmiş və onun rəsmləri Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən bir sıra kolleksiyaları bəzəyir. Hazırda Reynvilə məxsus emalatxana Men ştatının Kamden şəhərində fəaliyyət göstərir.



**Bright Trees**, undated
Oil on canvas, 29 ¾ x 23 ¾ in.
Courtesy of Art in Embassies, Washington, D.C.;
Gift of John Walker

**“Parıltılı ağaclar”**, tarixi göstərilməmişdir
Kətan üzərində yağlı boya ilə çəkilmiş rəsm
75.6 x 60.3 sm
Səfirliklərdə İncəsənət Proqramının icazəsi ilə:
Vaşinqton, D.C., Con Uolkerin hədiyyəsi

# James N. Rosenberg

*1874-1970*
*Allegheny City, Pennsylvania*

James Rosenberg was a graduate of Columbia College (New York City) and received his law degree from Columbia Law School in 1898. He retired from law practice in 1947, and devoted himself to art. His work appears in museum collections throughout the United States. The second exhibition mounted by the Georgia Museum of Art (April 25 to May 25, 1949) featured a retrospective of Rosenberg’s paintings. As described in the catalog by Alfred Holbrook, founder and first director of the museum:

“By 1912 he [Rosenberg] was enough interested in art to visit Woodstock, New York and take a course in painting lessons. Loving the beauty of the mountain landscapes, he maintained a summer abode in the Adirondacks. There, by frequently dabbling in art – learning to use the palette knife, the brushes and his fingers – he slowly developed the Rosenberg style of heavy impasto painting. He found he could recreate the grandeur or appeal of the scenes around him.”

*https://issuu.com/gmoa/docs/james_n._rosenberg-paintings*

# Ceyms N. Rozenberq

*1874-1970*
*Alleqan şəhəri, Pensilvaniya*

Ceyms Rozenberq Kolumbiya Kollecini (Nyu-York şəhəri) bitirmiş və 1898-ci ildə Kolumbiya Hüquq Məktəbində hüquq üzrə təhsil almışdır. O, 1947-ci ildə hüquq sahəsindən təqaüdə çıxmış və özünü incəsənətə həsr etmişdir. Onun rəsmləri Amerika Birləşmiş Ştatlarının müxtəlif bölgələrində fəaliyyət göstərən muzey kolleksiyalarında nümayiş olunur. Corciya İncəsənət Muzeyi tərəfindən Rozenberqin rəsmlərinin retrospektiv sərgisi keçirilmişdir (25 aprel-25 may, 1949-cu il). Muzeyin təsisçisi və ilk direktoru Alfred Holbruk tərəfindən hazırlanmış kataloqda aşağıdakılar qeyd olunmuşdur:

“1912-ci ilə qədər onun [Rozenberq] incəsənətə göstərdiyi böyük maraq onu Nyu-Yorkun Vudstok şəhərinə səfər etməyə və rəsm kurslarında iştirak etməyə vadar etmişdi. Dağ mənzərələrinin gözəlliyinə vurğun olan Rozenberq Adirondaksda bağ evi almışdı. Orada, o, tez-tez həvəskar rəsmlərin çəkilməsi ilə məşğul olurdu – mastixindən, fırçalardan və barmaqlarından istifadə etməyi öyrənməklə yavaş-yavaş ağır impasto rəsm sənətinin Rozenberq üslubunu inkişaf etdirdi. O, ətrafındakı mənzərədən əzəmətli təsvirlər və ya gözəllik yarada bildiyini kəşf etdi.”

*https://issuu.com/gmoa/docs/james_n._rosenberg-paintings*

**Cadillac Mountain 1**, 2011
Soft pastel on rag paper, 19 x 25 in.
Courtesy of the artist, East Machias, Maine

**"Kadillak dağı 1"**, 2011-ci il
Pambıq parça üzərində yüngül pastel boya ilə işlənmiş rəsm, 48.3 x 63.5 sm
Müəllifin icazəsi ilə: İst Maçias, Men

# Jude Valentine

"In my paintings, I focus on conveying the qualities inherent within a landscape that make the heart open, hopefully allowing the viewer to find an inner peace. I see a function of these pieces as a contemplative icon – a place for the viewer to rest and restore through viewing the imagery – where the painting functions like a refreshment or balm for the eye and for inner reflection.

Often the works are started from sketches and color studies on site and finished in the studio. I am also finding that this series of works is preserving views of the landscape that are rapidly changing – often before our eyes. Views are fragile and can quickly be transformed with new buildings . . . In this respect, my work functions much like documentary photography – an unintentional consequence of the speed of life – and a personal statement of record."

Jude Valentine completed her Bachelor of Fine Arts degree at the Maine College of Art (Portland) and received a Master of Fine Arts degree in visual art from Vermont College of Fine Art (Montpelier). She has received numerous awards for her work, including a Jerome Foundation Fellowship, several Special Opportunity Stipends through the New York

# Cud Valentayn

"Rəsmlərimdə hər hansı bir təbiət mənzərəsinə xas olan və insanın ürəyini oxşayan, tamaşaçıya qəlbən rahatlıq gətirən keyfiyyətləri çatdırmağa çalışıram. Mən bu rəsmlərdəki təsvirlərin insanı dərindən düşündürmək funksiyasına malik olduğunu düşünürəm – tamaşaçı həmin təsvirləri seyr etməklə istirahət edir və rahatlaşır – bu zaman həmin rəsm, gözlər və daxili rahatlıq üçün bərpaedici və ya sakitləşdirici balzam təsiri bağışlayır.

Çox vaxt rəsmlər eskizlərdən və rənglərin araşdırılmasından başlayır, emalatxanada tamamlanır. Bu zaman çəkdiyimiz rəsmlər gözümüzün qarşısında sürətlə dəyişən təbiət mənzərələrinin qorunub saxlanılmasını təmin edir. Mənzərələr kövrək olur və yeni tikililər nəticəsində sürətlə dəyişə bilər... Bu baxımdan, mənim rəsmlərim daha çox sənədli foto çəkilişi – həyatın sürət axarının düşünülməmiş nəticəsini – və şəxsi xatirə qeydlərini özündə ehtiva edir".

Cud Valentayn, Men İncəsənət Kollecində (Portland) incəsənət üzrə bakalavr və Vermont Təsviri İncəsənət Kollecində (Montpelier) isə təsviri incəsənət üzrə magistr təhsili almışdır. O, rəssamlıq fəaliyyətinə görə bir sıra mükafatlara, o cümlədən Cerom Fondunun Təqaüdünə, Nyu-York İncəsənət Fondu tərəfindən bir neçə xüsusi təqaüdə, Nyu-York İncəsənət Şurası tərəfindən



Foundation for the Arts, artist-in-residency grants through the New York Council on the Arts, and National Park Service, and an Individual Grant Award from Cornell University Council of Creative Arts. In 2013, one of Valentine's landscapes was awarded an Honorable Mention as part of the Pastel 100 competition. She has exhibited widely in New England and New York. Valentine is currently an adjunct member of the interdisciplinary fine art faculty at the University of Maine in Machias.

qrant mükafatlarına və Kornell Universitetinin Yaradıcı İncəsənət Şurası tərəfindən fərdi qrant mükafatına layiq görülmüşdür. 2013-cü ildə, onun Valentin Gününə həsr olunmuş təbiət mənzərələrindən biri Pastel 100 yarışmasında münsiflər heyəti tərəfindən Həvəsləndirici Mükafata layiq görülmüşdür. O, ABŞ-ın şimal-şərq bölgəsində (Yeni İngiltərə) və Nyu-Yorkda əsərlərini geniş şəkildə nümayiş etdirmişdir. Valentayn hal-hazırda Maçias şəhərindəki Men Universitetinin incəsənət fakültəsində müqavilə əsasında müəllim kimi fəaliyyət göstərir.





# Titus Welliver

*1961*
*New Haven, Connecticut*

Titus Welliver began his formal training as a painter at the age of twelve with his father, artist Neil Welliver, and continued five years later at Bennington College (Vermont) with Philip Wofford and Pat Ford. Five years later Welliver abandoned his career as a painter and pursued acting. He has a lengthy resume as an actor in film and television, including films *Gone Baby Gone, The Town, Argo,* and *Transformers: Age of Extinction*. Welliver is currently shooting his third season as the titular character on the Amazon Studios series entitled *Bosch*.

After a twenty-five year hiatus from painting, Welliver began painting again and has exhibited in several shows in the past ten years. He makes his home with his family in Los Angeles and Connecticut.

# Taytus Veliver

*1961-ci il*
*Nyu Haven, Konnektikut*

Taytus Veliver rəssam kimi ilk təhsilini on iki yaşında ikən atası, rəssam Neil Veliverdən almış və beş il sonra Benninqton Kollecində (Vermont) müəllimləri Filip Vofford və Pat Ford ilə davam etdirmişdir. Beş il sonra isə, Veliver rəssamlıq karyerasına son qoyaraq aktyorluqla məşğul olmağa başlamışdır. O, filmlərdə və televiziyada uzun müddət aktyor fəaliyyəti ilə məşğul olmuş, o cümlədən *“Qızımı Qurtarın”, “Oğrular Şəhəri”, “Arqo”* və *“Transformerlər: Yox Olma Dövrü”* adlı filmlərdə çəkilmişdir. Veliver hazırda “Amazon Studios” tərəfindən çəkilən “Bosch” adlı serialda üçüncü mövsümdür ki, baş rollardan birini ifa edir.

Rəssamlıq fəaliyyətinə iyirmi beş il fasilə verdikdən sonra, Veliver yenidən rəsm çəkməyə başlamış və son on ildə bir neçə sərgidə iştirak etmişdir. O, ailəsi ilə Los-Anceles və Konnektikutda yaşayır.

---

**Housatanic Fall**, 2007
Acrylic on canvas, 30 x 24 in.
Courtesy of the artist, Los Angeles, California

**“Housatonik payızı”**, 2007
Kətan üzərində yağlı boya ilə çəkilmiş rəsm, 76.2 x 61 cm
Müəllifin icazəsi ilə: Los-Anceles, Kaliforniya

# Acknowledgments

**Washington**
Braden Malnic, *Curator*
Jamie Arbolino, *Registrar*
Marcia Mayo, *Senior Editor*
Sally Mansfield, *Editor*
Victoria See, *Assistant Editor*
Tabitha Brackens, *Publications Project Coordinator*
Amanda Brooks, *Imaging Manager*

**Baku**
Amy Petersen, *Cultural Affairs Officer*
Fargani Aliyev, *Cultural Affairs Specialist*
David Galles, *Assistant General Services Officer*
Abbas Kadimov, *Customs and Shipping Supervisor*
Ilgar Guliyev, *Customs and Shipping Staff*
Ali Jalilov, *Customs and Shipping Staff*

**Vienna**
Nathalie Mayer, *Graphic Design*

# Təşəkkürlər

**Vaşinqton**
Braden Malnik, *Kurator*
Ceymi Arbolino, *Arxiv müdiri*
Marsia Mayo, *Baş redaktor*
Salli Mensfild, *Redaktor*
Viktoriya Si, *Redaktor köməkçisi*
Tabisa Brakens, *Nəşrlər üzrə layihə əlaqələndiricisi*
Amanda Bruks, *Çəkiliş meneceri*

**Bakı**
Emi Pitersen, *Mədəniyyət və təhsil məsələləri üzrə müşavir*
Fərqani Əliyev, *Mədəniyyət məsələləri üzrə mütəxəssis*
Devid Qalos, *Ümumi işlər üzrə şöbə rəhbərinin köməkçisi*
Abbas Qədimov, *Gömrük və yükdaşıma xidmətləri üzrə menecer*
İlqar Quliyev, *Gömrük və yükdaşıma xidmətləri üzrə işçi*
Əli Cəlilov, *Gömrük və yükdaşıma xidmətləri üzrə işçi*

**Vyana**
Natali Mayer, *Qrafika rəssamı*

GPS Designed, printed and produced by Global Publishing Solutions

**http://art.state.gov**

Published by Art in Embassies
U.S. Department of State, Washington, D.C.
September 2016